# Əbədiyaşarlılıq möhürü

**Baharda məzarıstan**

Hər kəs doğum gününü baharda istər, ilin gözəl fəsli, həyatın başlanğıc simvolu olduğu üçün. Baharda doğulan insanların əksəriyyəti emosional olar, həyata daha nikbin "gözlə" baxarlar. Bahar günəşinin şəfəqləri, bahar yağışının şıltaqlığı, göy qurşağının gözəlliyi, günəşi "təqdim edəcək" dumanın qaatılığı, quşların öz dilində nəğməsi, segahı, heyvanların öz aləmində etdikləri hərəkətləri belə başqa gözəllikdə olar baharda. Bahar səhərinin başlanğıcı, dan ulduzunun doğuluşu, gecənin qaranlığı belə gəlişiylə göz oxşayar, insanların zəhmət dolu hər səhəri, hər günü əsrarəngiz gözəlliklərlə başlar.

Bax, belə bir gündə doğulmuşdu Ağaşirin... O Ağaşirin ki, kiçicik ömrüylə adını daha da böyütdü, əsrə yaxın ömür yaşayanların yaşayıb da iz qoymadığı bir əbədiyaşarlılığına möhür vurdu!

Məzarıstan, şəhid məzarları, həmişə bahar şəhid "daşları"... Daşlar daşlığıyla gül-çiçək açar, göz yaşları ilə sulanan arzular, torpaq isə bu ömrübaharların xatirələrindən yaranan təbəssümlərlə yaşıllanar, çiçək açarlar!

Şəhidlərsə donuq şəkillərdən danışarlar ziyarətçilərə:

***Nə vaxtsa eləcə çiçəkmişəm mən,***
***Nə vaxtsa beləcə insanmış o da.***
***Çiçəklər insanın təbəssümündən,***
***Daşlar qəzəbindən göyərər bəlkə.***

Daşlar yarımqalmış arzuların qəzəbindən göyərərək soyuq, donuq çiçəklər açar məzarıstanda. Bahar öz libasıyla; göy qurşağı rəngləriylə bahar geyimini donuq gözəlliyə sərərək bir istilik, bir canlılıq gətirər məzarıstana. Bahar ömürlüləri güllərin xoş qoxusu, quşların cəh-cəh səsi oyadar və gün ərzində təbiətin bütün əsrarəngizliyi məzarıstana da xidmət edər. Qan rənginin rəng verdiyi güllər şəhid balalarının xəfif "örtüyünə" çevrilər...

**Babasının şeirlərinin qəhrəmanı**

Babası, Qəbələmizin ziyalı, şair oğlu Baba müəllim uşaq şeirlərində nəvələrini də əks etdirərdi... Onun yazdığı şeirləri yada saldıqca təhsilə, vətənpərvərliyə, həyata bağlılığa, insanlığa çağırış ruhlu şeirlərində məhz övladlarına və nəvələrinə ithaflığın motivlərini xatırlayıram. Elə babanın da belə nəvəsi olmalı idi-insanlığın zirvəsini fəth edəcək qəhrəman əməlli, igid fateh!

Ağaşirin Babayev Firuz oğlu-2001-ci ildə Qəbələnin Qəmərvan kəndində doğulmuşdur.

**Tərcümeyi-hal**

Ailənin tək oğul övladı idi, atanın güvənc yeri, ananın arzu, sevinc toplusu, bacılarının arxa-dayağı, ürək parçası, üzünün-gözünün məlahəti, gözəlliyi, üreyi ilə qəlbinin birgə sevinc tapdığı bir






mənbə idi Ağaşirin. Üzlərinə qonan kədəri heç nə əvəz edə bilmir indi və edə də bilməz. Tək təskinliyi onun qəhrəmanlığı, qorxmazlığı haqqındakı məlumatlar, igidliyinə görə layiq görüldüyü medallar. Və ən başlıcası, məzarı hər gün ziyarəti, üstünə hər gün qoyduqları gül dəstələri, onun yaşadığı ömrün hər anının "dil açan" xatirələri.

Rayonumuzun bütün təbii gözəlliklərini özündə birləşdirən Qəmərvan kəndində dünyaya gəlmişdi. Ailənin rayon mərkəzinə köçməsi ilə bağlı yaşayış yerini dəyişmiş və şagirdlik çağlarını Qəbələ şəhərində keçirmişdir. 2001-ci il mayın 16-da doğulan Ağaşirin əvvəlcə şəhər 5 saylı, sonra isə 3 saylı məktəbdə orta təhsil almışdır. Hələ orta məktəbdə oxuyarkən ailə vəziyyəti ilə əlaqədar işləyirdi və bərbərlik sənətinə də yiyələnmişdi. 3 bacının bir qardaşı və evin sonbeşiyi olan gənc 2018-ci ildə orta məktəbi bitirdikdən sonra aqrar inkişaf mərkəzində 2 ay könüllü olmuş, sonra şəhər mərkəzindəki mağazada işləməyə başlamışdı. Zəhmətkeş, ailəsinə bağlı bir övlad idi.

2019-cu il iyulun 23-də həqiqi hərbi xidmətə çağrılan Ağaşirin əvvəlcə Ağcabədi rayonunda N saylı hərbi hissədə xidmətə başladı. Xidmət dövründə də hərbi hissədə öz davranışı ilə hörmət qazanmışdı; tez-tez ailəsi ilə əlaqə saxlayırdı. Ailə min bir arzu ilə onun xidmətinin başa çatmasını gözləyirdi.

2020-ci ilin 20 sentyabrında başlanan Vətən müharibəsi qəlbində vətənpərvərlik hissi olan hər bir gəncin əsil kişilik məktəbinə çevrildi. Ağaşirin də məhz bu məktəbin müdavimi oldu.

Müharibə başladığı gündən cəbhənin ön xəttində olmuş, rəşadətlə vuruşmuşdu, cəbhənin müxtəlif istiqamətlərində gedən əks-hücum əməliyyatlarında iştirak etmişdi. Ailəsi ilə əlaqə saxlayarkən də qalib gələcəkləri haqqında danışar, həmişə yaxşı olduğunu bildirərdi. Sonuncu dəfə 2 noyabrda telefonla danışmış, demişdi: "Ana, özünüzə yaxşı baxın, vaxt tapıb sizə bir də zəng edəcəm". Sonra 16 gün ondan xəbər alınmadı. Şəhid xəbəri noyabrın 18-də ailəsinə bildirildi

Zəfər xəbərini övladının heç bir xəbərini eşitməyən əzizləri belə coşqu ilə qarşılamışdı: ürəklərində min bir istək, əlləri uca Tanrıya uzanmış, dili-ağzı dualı... Ancaq Tanrı verdiyini Tanrı da alır və insanlar içərisində ən yaxşılarını ömrünün də ən yaxşı dövründə öz dərgahına aparır. İllərlə həsrətin sona çataraq Tanrının onlara bəxş etdiyi oğul payının günlərlə axtarışdan sonra, Zəfərdən sonra 18 noyabrda Firuz ata, Əsli ana, 3 boynu bükük bacı böyük bir milli bayrağımıza bükülmüş nəşini qəbul etdilər... 19 noyabrda rayon mərkəzindəki qəbristanlıqda dəfn olundu.

Ağaşirin alınan məlumatlara görə, noyabrın 3-də Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olmuşdu.

Ölümündən sonra "Vətən uğrunda" və "Xocavənd uğrunda" medalları ilə təltif olunmuşdur.

**Sindrom**

Şəhid şəkillərinə baxarkən onlarla heç danışmısızmı?! Lal baxışlarının "dilini" anlamağı bacarmısınızmı? O baxışları dinləmək və onları cavablandırmaq hünər istər, cəsarət istər... Bu isə hər insana xas deyil. O baxışların dərinliyinə getmək, o fidan arzuların, yarım qalmış gələcəyin istəklərini hər kəs oxusa belə, cavablandıra bilməz. Nədən, niyə və məhz mən?! Ancaq onlara ən əsas vahid bir cavab var:- halal zəhmətlə böyüyən, qanında vətənpərvərlik sindromu olan, torpağına, ocağına səcdə edən xalqına sevgisi sonsuz olan, böyüyə-kiçiyə layiq olduğu ehtiram, sevgini göstərməyi bacaran, vicdanın diktəsini daha üstün tutan, dünyagörüşü yaşadığı ailənin səviyyəsindən formalaşmağa başlayan, vətəndaş məhfumunu hələ körpəlikdən çözməyə çalışan, həyatın hər təsadüfünə, ən adi yaranışlarına, qarşılaşdığı hər hərəkətə-ən adi yağış damcısının belə həyatına rövnəq verdiyini düşünən kəslərdir şəhadət yolçuları. Bütün bunlar isə onlarda gendəngəlmə, kökdən bəhrələnmədir. Ot kökü üstə bitər və o zaman kökə bağlanar ki, kökə birləşərkən də, sağlam pöhrə ola!.. Belələri isə bahar ömürlülər, vətən və xalqı üçün şəhadətə zəvvar olanlar və qovuşanlardır. Məhz Ağaşirində öz kiçicik ömrü ilə əsr yaşayaraq öz tarixini yazdı. Qısa tərcümeyi-hal ilə, böyük imza yazanlardan biri oldu. 44 günlük müharibədə dastan ömrü yaşayan şəhidimizin döyüşdüyü günlər, şəhid olub neytral zonada qaldığı hər saat əzizləri üçün əsrə bərabər gün olmuş və bu günlərin hər biri onların qəlb çırpıntılarından yazılmış bir dastana çevrilmişdir. Bu dastanların ünvanı isə nə vərəqlərdir, nə kompüter yaddaşları; onları qəlbləri və göz yaddaşlarıdır.

**Bənövşələr kimi...**

Ata qəddi əyilər, ana yaşayışı su üzərindəki sabun köpüyünə bənzər. Qardaş köksü daim ağrayan "təzə yaralı", bacılarsa, bacılar sal qayası yıxılmış, daşlar altında əzilən boynubükük bənövşələrə bənzər. Şəhid əzizləri yaşadığı həyatın hər rəngini torpaq və qan rəngində görər: qara-qırmızı!.. Yaşarlar onlar-həyatı yaşamağa məcbur olduqları üçün... Axı ömrü Tanrı yazar! İgid şəhidinin sağlam və canlı yaşadar onları! Şəhidinin istəklərini heç olmasa yaşada bilsin deyə!..

**Könüllərdə yaşar ki...**

19 yaş nədir ki... Ancaq bu 19 ilin şəhidliyindən sonra 15 gün ərzində ondan xəbər tutulmaması və axtarılması onun əzizlərinin və onun ömür salnaməsinə hər günün hər dəqiqəsini bir əsrə bərabər zaman kimi yazdı...yaşlandı şəhidimiz... Bu gün könüllərdə məskən saldı.

Məhz bu onun doğum günündə onun ziyarətinə yığışan insanların yazın leysan yağışı altında ona həsr olunmuş tədbirin keçirilməsi zamanı daha bariz şəkildə göründü. Heç kəs yağışdan kənarlaşmadı. Çünki bu göylərin ona göz yaşı idi...

Bu insanların yaddaşının təkrar yuyulması, bəzi unutqanlıq izlərinin yuyulması idi. Şəhidimiz Ağaşirin isə məzar daşındakı şəkilindəki baxışları ilə deyirdi:

***Gəldim qarşıladı güllər, çiçəklər,***
***Gedirəm əl edir boz biçənəklər.***
***Nidanı çaylara dedi küləklər:***
***Bulan, salamat qal, ax, salamat qal!***

Baharda doğuldu, payızda köçdü bu dünyadan!.. Yox, dünyadan cismən köçsə də, könüllərdə əbədi məskən saldı baharömürlüm! Küləklər əsdikcə, çaylar axdıqcabir sözlə, dünya durduqca-nəsillər ötdükcə Ağaşirin də yaddaşlardan addayaraq yeni yaddaşlara köçərək əbədi yaşayacaq!

# Bu günündən dünəninə uzaqlaşma...



Təbiətin qoynunda hələ də öz təbiiliyini itirməyən obalarımız, insanlığın gərdişində saflıq duyğuları yaşayan və yaşadılan oba sakinlərimiz, süni gözəlliklərdən, "özgəninkiləşdirilməkdən" qismən də olsa uzaq olan məkanlarımız nə yaxşı mövcuddur hələ. Texnologiyanın sürətlə inkişafı insanların da tam mənada hərtərəfli dəyişməsinə səbəb olur, bir sözlə "robotlaşma" prosesinə sürükləyir. Ancaq bu inkişafdan düzgün istifadə qaydalarını bəzən bilərəkdən, bəzən də bilməyərəkdən tamlığı ilə öyrənməyənlər çoxdur. Axı yarımçıq bilgilər həyatı yeknəsəkləşdirir.

Məmmədağallı məhz təbiətin gözəlliklərini özündə cəmləşdirən bir oba, bir kənddir. Ta uşaqlıq çağlarımdan tanıyıram bu kəndi...

Bu kəndin insanları vətənpərvər, qonaqpərvər, mehriban və zəhmətsevəndirlər. İnsan harada dünyaya göz açırsa, ağsaqqal və ağbirçəklərinin öyüdünü harada dinlərsə vətən oradan başlanar. Bəzən başqa mahal və obalarda böyüsə belə,- yurd qoxusu, gen kodu - dədə-baba "qanı" çəkər onu obasına; öz obasının insanlığa xas olan hər xüsusiyyəti geniylə onda təzahür edər, qanında yaşar. Atalar belə halda ot kökü üstə bitər deyərlər!

Qəhrəmanlığa meyllilik, igidlik hər kəsin yaşadığı mühitdən doğar, ailəsində formalaşar, oxuduğu təhsil müəssisələrində və ətrafındakı insanlarla münasibətlərində yetkinləşər; hər kəs də özünə məxsus olanı "götürər". Məhz Nurlan kimi...

Nurlan Eyvaz oğlu Ağayev də bu kəndin övladıdır. Sənət seçəndə elə birini seçdi ki! Məmməd Araz şeirində deyildiyi kimi:

***Adi ömür, adi iş -***
***Məndən ötrü deyildir.***
***Hələ bir insan ömrü...***
Nurlan elə bir ömür seçdi ki:
***Fənər ollam gecəyə,***
***Qanad ollam buluda,***
***Nəfəs ollam sükuta...*** - dedi.

O, 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində - 44 günlük müharibədə iştirak etdi; qorxmadan, qəlbində Vətən sevgisiylə, həm də son anadək! XTQ əsgərləri ölümsüzlük ruhlu olurlar. Ölüm onlardan çəkinər çox zaman. Çünki bu əsgərlər Vətənin işıqlarıdır, qara geyimdə, ancaq ən güclü işıqları!

***...Gecələr ölümü yaman aldatdım,***
***Ölüm kor olurmuş işıq yananda.***
***Ölüm yarasaymış, əsil yarasa,***
***İşıqdan çiyrənib, zülmətdə itir.***
***Ən ağır şivənə, ən ağır yasa***
***Əldə işıq gedin,gözdə nur gedin!***
**(M. Araz).**

XTQ-nin N saylı hərbi hissəsində qulluq edən Nurlan Ağayevin iş həyatı qəhrəmanlıq şüsaəti olanlara məxsusdur. Belə ömür yaşayanlar hər gün ölümün gözünə cəsarətlə baxan, çevik və igid, vətən və xalq təəssübkeşli, yurdunun qəhrəmanlıq salnaməsinə iz salan, şəhid oğullarımızın ruhları ilə birgə daima Vətən keşiyində dayanan, ölkəmizin bütövlüyü uğrunda canından belə keçməyə hazır olan insanlardır. O insanlar ki varlığını, əməlini yalnız Vətən bilər, Vətən görər, yalnız qəhrəmanlıq salnaməsini xalq görər, duyar və onları hər kəs sevər. Onlarınsa bir istəyi var:

- Bu günündən dünəninə uzaqlaşma!

**Bibixanım İSAYEVA.**